# Gülnaz Abdullazadənin "Hicazkar İlahi – Sultan Nənəm" əsərinin İlham Nəzərovun təfsirində ifaçılıq xüsusiyyətləri

**Abbasqulu Nəcəfzadə**
Sənətşünaslıq elmləri doktoru
Azərbaycan Milli Konservatoriyası. Azərbaycan.
E-mail: a.najafzade@yahoo.com

**Annotasiya.** Təqdim olunan məqalədə Azərbaycan Respublikasının ilk və yeganə kontratenor səs tembrinə malik vokal ifaçısı İlham Nəzərovun bəstəkarlıq məktəbimizin nümayəndəsi, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının elmi işlər üzrə prorektoru, Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor Gülnaz Abdullazadənin bəstələdiyi "Hicazkar İlahi – Sultan Nənəm" adlı əsərinin ifaçılıq xüsusiyyətlərinə nəzər yetirilir, vokal ifaçısının kamança alətinin ifaçılıq xüsusiyyətlərini nəzərə alaraq əsəri təfsir etməsi kimi məsələlər işıqlandırılır. Aparılan araşdırmada İ.Nəzərovun Azərbaycan vokal ifaçılıq sənətindəki yeri və rolu da diqqətdən kənarda qalmır.
**Açar sözlər:** Azərbaycan vokal ifaçılıq sənəti, İlham Nəzərov, novator, "Hicazkar İlahi – Sultan Nənəm", Gülnaz Abdullazadə, bəstəkar, Kenan Rifai Büyükaksoy, kamança aləti

**Məqalə tarixçəsi:** göndərilib – 06.10.2022; qəbul edilib – 20.10.2022

# Performance features of "Hicazkar Ilahi – Sultan Nenem" by Gulnaz Abdullazade in Ilham Nazarov's interpretation

**Abbasgulu Najafzade**
Doctor of Art Studies
Azerbaijani National Conservatory. Azerbaijan.
E-mail: a.najafzade@yahoo.com

**Abstract.** The article deals with the performance features of "Hicazkar İlahi - Sultan Nənəm" by professor Gulnaz Abdullazade, the representative of the national school of composers, the Vice-Rector for Scientific Affairs of Baku Academy of Music named after Uzeyir Hajibeyli, Honored Art Worker, Doctor of Philosophy, in the interpretation of Ilham Nazarov, the first and only domestic vocalist with a countertenor voice timbre. The article describes how the performer paid special attention to the performance features of the musical instrument kamancha in his interpretation, as well. In his studies, the author does not disregard I.Nazarov's place and role in the Azerbaijani vocal performing art.
**Keywords:** Azerbaijani vocal performing art, Ilham Nazarov, innovator, "Hijazkar İlahi – Sultan Nenem", Gulnaz Abdullazade, composer, Kenan Rifai Buyukaksoy, kamancha

**Article history:** received − 06.10.2022; accepted − 20.10.2022

## Giriş / *Introduction*

Azərbaycan Respublikasının Əməkdar artisti, Prezident mükafatçısı, müxtəlif nüfuzlu beynəlxalq müsabiqələrin qalibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru İlham Nəzərovla ilkin ta-

nışlığım bir neçə il bundan əvvələ təsadüf edir. Baxmayaraq ki, onu bir istedadlı ifaçı kimi daha əvvəllər tanıyırdım, amma yaxından tanışlığımız, ünsiyyətimiz olmamışdı.

2021-ci ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (FD 2.36) Dissertasiya Şurasının nəzdində fəaliyyət göstərən elmi seminara üzv seçildim. Burada rəy yazmaq üçün İ.Nəzərovun "Müslüm Maqomayevin Azərbaycan və dünya vokal ifaçılığı sənətində rolu" adlı dissertasiya işini və avtoreferatını mənə təqdim etdilər [9]. Tədqiqat işinin elmi nöqteyi-nəzərdən yüksək səviyyədə aparılması dissertasiyanın müəllifi haqqında müsbət düşüncələrimin artmasına səbəb oldu.

## Əsas hissə / *Main Part*

**İ.Nəzərovu Azərbaycan və dünya musiqi mədəniyyətində digər vokal ifaçılarından fərqləndirən əsas xüsusiyyətlər**

| | |
|---|---|
| - dünyada çox az sayda vokal ifaçısının malik olduğu 5 oktavanı əhatələyən geniş səs diapazonuna yiyələnməsi. | - Azərbaycanda kontratenor səs tembrinə malik ilk və yeganə vokal ifaçısı olması. |
| - dünya musiqi tarixində ilk dəfə olaraq romantizm dövrünün bəstəkarı olan F.Şubertin "Qu quşunun nəğməsi" vokal silsiləsini kontratenor səs tembri ilə ifa etməsi. | - Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində kontratenor kimi çıxış edən ilk müğənni olması. |
| - bir konsert proqramında müxtəlif səs tembrləri üçün yazılan əsərləri həmin tembrlərə məxsus tessiturada ifa etmək qabiliyyətinə malik olması. | - Azərbaycan vokal ifaçılıq tarixində opera səhnəsində həm ifaçılıq, həm də obraz cəhətdən bir-birindən fərqli 50-yə yaxın partiyanı səsləndirməsi. |
| - repertuarında XVI əsrdən XXI əsrə qədər (ariyalar, romanslar, bəstəkar və xalq mahnıları, caz əsərləri, populyar mahnılar və s.) fərqli janrlarda yazılmış musiqi nümunələrinin yer alması. | - Azərbaycanın sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsinə malik ilk opera müğənnisi olması. |

Yuxarıda qeyd olunanları nəzərə alaraq əminliklə demək mümkündür ki, Azərbaycan musiqi mədəniyyətində İ.Nəzərovun rolu əvəzolunmazdır.

İ.Nəzərov dünyaca tanınmış vokal ifaçısı olmaqla yanaşı, gözəl alim, pedaqoq, meloman, 30-a yaxın elmi məqalənin müəllifi, "Barokko Günləri" Beynəlxalq Musiqi Festivalı və bir çox konsertlərin təşkilatçısı kimi də yüksək qiymətə layiqdir.

Ü.Hacıbəyli adına BMA-nın elmi işlər üzrə prorektoru, fəlsəfə elmləri doktoru, Əməkdar incəsənət xadimi, professor Gülnaz Abdullazadə tərtib etdiyi "İ.Nəzərov: sərhədsiz səs..." adlı kitabında vokal ifaçısının yaradıcılığı haqqında bu fikirləri qeyd edir: *"İ.Nəzərov kimi geniş amplualı müğənninin yaradıcılığı Azərbaycan musiqi mədəniyyəti üçün əlamətdar hadisədir və onun fəaliyyəti vokal ifaçılıq sənətimizin üfüqlərini genişləndirir"* [6, s.5]. Bu kitabı ərsəyə gətirən Gülnaz xanımı təkcə tərtibçi deyil, tərtibçi-müəllif kimi də təqdim etmək olar. Burada tərtibçiliklə yanaşı, müstəqil araşdırmalar da az deyil.

İlham müəllimin digər ilklərindən biri haqqında daha geniş bilgi verməyə ehtiyac duyuram. Bu, onun ilk dəfə oxuduğu və mənim də müşayiət etdiyim "Hicazkar İlahi – Sultan Nənəm" əsəridir. Həmin əsəri ilk dəfə Beynəlxalq Qadınlar Gününə həsr olunmuş "Qadınlar musiqidə" adlı kamera konsertində ifa etmişik [13].

Çoxşaxəli yaradıcılıq fəaliyyəti ilə diqqəti cəlb edən İ.Nəzərov G.Abdullazadənin "Hicazkar İlahi – Sultan Nənəm" əsərinin sədaları altında H.Cavidin "İblis" əsərindən İblisin monoloqunu [5, s.103-104] peşəkar aktyor, qiraətçi kimi də təqdim etmişdir [12]. İblis obrazı və insan ruhunu oxşayan musiqi nümunəsi bir-birinə zidd olsa da, bu tandem İ.Nəzərovun təfsirində düşündürücü və rahatlıqverici təsir gücünə malikdir.

Qeyd etmək istərdim ki, müğənninin repertuarında G.Abdullazadənin Azərbaycanın Xalq şairi Vahid Əzizin sözlərinə yazdığı "Cığırlar", "Sən olmasaydın" musiqi nümunələri də yer almaqdadır. G.Abdullazadənin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin (1141-1209) qəzəlinə bəstələdiyi "Könlüm sitəminlə canə yetdi" romansının ilk ifaçısı da məhz İ.Nəzərovdur.

Əməkdar incəsənət xadimi, professor Zümrüd Dadaşzadə "Mədəniyyət-Culture" jurnalında G.Abdullazadənin müəllifi olduğu "Könlüm sitəminlə canə yetdi" adlı romansında İ.Nəzərovun təfsirini belə qiymətləndirir: *"G.Abdullazadənin əsərinin vokal nitqi ehtiraslıdır, çılğındır. İ.Nəzərov da bu xüsusiyyəti qabardır. Dinamik kompozisiyanın orta bölməsində gərginliyin artımı fortepiano partiyasının interlüdü ilə də qabardılır. Romansı bitirən son misraların İ.Nəzərov tərəfindən ifadəli qiraəti qəzəlin simasını özgünləşdirərək güclü təsir bağışladı"* [3, s.48].

2022-ci il martın 10-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi və Azərbaycan Bəstəkarlar İttifaqının təşəbbüsü ilə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında keçirilən konsertdə G.Abdullazadənin yuxarıda adları sadalanan əsərləri arasında bəstəkarın ilk dəfə ifa olunan "Hicazkar İlahi – Sultan Nənəm" adlı musiqi nümunəsi xüsusi olaraq seçilirdi.

Həmin konsert haqqında sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Jalə Qulamova mətbuatda bilgi vermişdir [7, s.5]. O özü də bu tədbirin açılışında Azərbaycan Bəstəkarlar İttifaqının adından məruzə ilə çıxış etmişdir. Lakin nədənsə, Jalə xanım "Mədəniyyət" qəzetində dərc olunan məqaləsində G.Abdullazadənin "Hicazkar İlahi – Sultan Nənəm" əsəri haqqında bir kəlmə də olsun yazmamışdır. Əslində, fikrimizcə, bu əsər ilk dəfə səsləndiyinə görə, onun haqqında oxucuya məlumat vermək daha maraqlı olardı...

Seçilən bəstəkarlarımızın əsərlərinin təhlili və təbliği gənc bəstəkarlar tərəfindən yazılacaq musiqi nümunələrinin yaranmasına da, bir növ, dəstək olacaqdır. Bu səbəblə G.Abdullazadənin yüksək ifaçılıq qabiliyyəti tələb edən "Hicazkar İlahi – Sultan Nənəm" əsərinin vokal sənətimizin dəyərli nümayəndəsi İ.Nəzərovun təfsirində ifaçılıq təhlilinin edilməsini lazım bildik.

"Hicazkar İlahi – Sultan Nənəm" əsərinin sözləri, əsasən, Türkiyədə fəaliyyət göstərmiş görkəmli ilahiyyatçı, yazıçı, şair Kenan Rifai Büyükaksoya (1867-1950) aiddir. G.Abdullazadənin türkiyəli şair Kenan Rifai Büyükaksoyun sözlərinə müraciət etməsi heç də təsadüfi deyildir. Əsərin ilk vokal ifaçısı İ.Nəzərov "Mədəniyyət-Culture" jurnalında yer alan "Azərbaycan və Türkiyə musiqi elmi sahəsində Gülnaz Abdullazadənin rolu" adlı elmi məqaləsində bu fikirləri qeyd edir: "*Beləliklə, Gülnaz xanım Azərbaycan-Türkiyə mədəni əlaqələrinin inkişafında mühüm xidmətlər göstərən, onu yeni səviyyəyə yüksəldən böyük alimdir. O, hər iki ölkə arasında musiqi elmi sahəsində əməkdaşlığın yeni bir mərhələyə qaldırılmasına böyük töhfələr vermişdir"* [8, s.54].




Yuxarıda təqdim edilən “Hicazkar İlahi – Sultan Nənəm” əsərinin orijinal not nümunəsidir. Bu not nümunəsini tanınmış alim, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, Əməkdar artist Yulizana Kuxmazova işləyərək İlham Nəzərova təqdim etmişdir. Bilindiyi kimi, hər bir yeni vokal əsəri üçün öncə bəstəkar tərəfindən klavir hazırlanılır. “Hicazkar İlahi – Sultan Nənəm” əsəri isə not nümunəsində, göründüyü kimi, kanta şəklindədir. İ.Nəzərov bizə bildirdi ki, əsərin müəllifi Gülnaz xanım burada fortepiano aləti ilə müşayiəti nəzərdə tutmayıb. Bu səbəbdən İlham müəllim əsəri vokal (səs) və kamança üçün dialoq şəklində aranjiman etmişdir. Not nümunəsində vokal partiyanın yüksək tessituraya malik ifaçılar üçün nəzərdə tutulması diqqəti cəlb edən məqamlardandır. İ.Nəzərov isə əsəri iki oktava aşağı səsləndirmiş, bas-bariton registrindən istifadə etmişdir. Geniş diapazona malik İ.Nəzərov qeyd edilən konsertdə bəstəkarın digər əsərlərini yüksək tessiturada səsləndirdiyi üçün “Hicazkar İlahi – Sultan Nənəm” əsərini bas-bariton səs tembri ilə ifa etmək qərarına gəlmişdir. Əsərin bas-bariton tessiturasında ifa olunması dinləyiciyə bədii fikrin daha qabarıq çatdırılmasında da mühüm rol oynayır. Ümumiyyətlə, İ.Nəzərovun registrlərdən ustalıqla istifadə etməsini Ü.Hacıbəyli adına BMA-nın doktorantı Rüfət Piriyev belə qiymətləndirir: “*Müğənninin təfsirinin digər bir xüsusiyyəti isə onun registrlər vasitəsilə kontrastlığı əldə edə bilməsidir”* [10, s.212].

İ.Nəzərovun bu aranjimanında kamançada şur məqamında improvizə edilməli, müğənni isə həmin sədalar altında poetik mətndən bir bəndi şeir kimi, yəni nəzmlə söyləməlidir. Qeyd etməliyəm ki, əsərin ilk xanələrində verilən şeir Ukrayna dilində səsləndirilir. Bəstəkar yazdığı əsərin mətnini Ukrayna dilinə tərcümə etdirməklə, orada baş verən faciəli hadisələrə öz münasibətini bildirir. Ananın oğlunu müharibəyə yola salması, dualarında əsgərləri xatırlaması, insanları sülhə çağırması ilk xanələrdən musiqisevərlərin diqqətini cəlb edir.

Daha sonra mən əsərin ilk dörd xanəsini kamançada müqəddimə əvəzinə ifa etməli, bundan sonra isə ifaya vokal qoşulmalıdır. Əsərin bənd hissəsinin təkrarı zamanı ifaçı bəstəkarın

mətnini ikinci dəfə Ukrayna dilində ifa etməlidir. Birinci reprizadan sonra, yəni 25-26-cı xanələr yenidən kamançada sual şəklində ifa olunmalı, müğənni eyni melodiyanı cavab olaraq oxumalı və öz patriyasını 35-ci xanəyə qədər davam etdirməlidir. Vokal ifaçısı 35-36-cı xanələrdə pauza etməli, həmin xanələr kamançada ifa olunmalıdır. Bu xanələri də vokal partiyası ilə kamançanın dialoqu, yəni sual-cavabı adlandıra bilərik. Əlbəttə, akademik vokal ifaçısının hasil etdiyi səsin kamança səsi ilə uzlaşması müğənnidən peşəkarlıq tələb edir. Əsərin istər vokal, istərsə də kamança ifaçısı qarşısında qoyduğu tələblərə nəzər salaq:

− əsərin təfsiri zamanı vokal və kamança ifaçısının yüksək texniki imkanlara malik olması;

− müğənninin yumşaq səs hasilindən daha çox istifadə etməsi;

− kamança ifaçısının səsləri bir liqa altında ifa etməsi;

− hər iki ifaçı tərəfindən əsərin bədii məzmununun düzgün çatdırılması;

− müğənninin şeir və musiqini balanslı şəkildə səsləndirməsi;

− vokal partiyadan kamançaya keçid zamanı kamança ifaçısının melodiyanı inkişaf etdirməsi;

− həm kamança, həm də vokal ifaçısının əsərin ifası zamanı xırda texnikadan daha çox istifadə etməsi;

− aşağı registrdə, əsasən, akademik vokal ifaçılarına məxsus səs hasilindən istifadənin təmin edilməsi.

Əsərin sona qədər unison şəkildə səsləndirilməsi ifaçılar üçün heç də asan deyil. Qeyd etmək istərdim ki, kamança və akademik vokaldan ibarət ansambla çox nadir hallarda rast gəlinir. Bunu həm vokal, həm də kamança ifaçısının birlikdə səsləndirə biləcəkləri əsərlərin olmaması ilə də əlaqələndirmək olar.

“Hicazkar İlahi – Sultan Nənəm” əsəri necə başlamışdırsa, o şəkildə də tamamlanır, yəni kamançada ifa edilən “Şur” muğamının sədaları altında Kenan Rifai Büyükaksoyun həmin şeirindən bir bənd müğənni tərəfindən söylənilir. Əsərin əvvəlindən fərqli olaraq, sonda şeir Türk dilində səsləndirilir.

**G.Abdullazadənin “Hicazkar İlahi – Sultan Nənəm” əsərinin poetik mətnini təqdim edirik:**

*Ah benim nurlar içinde nur veren Sultan Nenem*
*Ah benim bi va yegana rahmeden Sultan Nenem*
*Ehl-i Beyt’in masdar u Mehdi benim Sultan Nenem*
*Pek muazzezsin, münevversin benim Sultan Nenem*
*Allah’ım ayırmasın bizden seni Sultan Nenem*
*Rahat-ı dareyndir agüşun bana Sultan Nenem*

Türk qaynaqlarından bəlli olur ki, şeirdə Sultan Nənəm dedikdə Xədicə anamız nəzərdə tutulur [11]. Xatırladaq ki, Həzrəti Xədicə binti Xüveylid (555-619) Məhəmməd Peyğəmbərin (570-632) ilk xanımı olmuş və ilk müsəlman qadın kimi İslam dininin yayılmasında mühüm rol oynamışdır. Onu Ümmül Möminin, yəni möminlərin anası adlandırırlar. G.Abdullazadə də bu əsərini məhz xanımlar xanımı – Həzrəti Xədicə xanıma həsr etmişdir. Bu səbəbdən bəstəkar həmin əsərinin ifasında Üzeyir bəy Hacıbəylinin (1885-1948) təbirincə desək, alətlər arasında “insan səsinə daha yaxın olan” kamançadan istifadə olunmasını məsləhət bilmişdir [4, s.500].

Deyildiyi kimi, təqdim edilən aranjimanda kamança əvəzinə istənilən incəsəsli (məsələn, ud, ney, tənbur və s.) alətdən də istifadə oluna bilər. Burada kamançada ifa edilən “Şur” muğamını fərqli təfsirlə də səsləndirmək olar. Bu ifa (istər əvvəldə, istərsə də sonda) sərbəst şəkildə, yəni hər bir instrumentalçının öz zövqünə uyğun olaraq müğənninin söylədiyi şeir bitənə qədər davam etməlidir. Əslində, muğam sənəti improvizasiyalı olduğundan onu əzbər ifa etmək çox çətindir. Məsələn, həmin əsəri yenidən ifa etsək, muğam hissələri fərqli şəkildə alınacaqdır. Ona görə bu qeydləri söyləməyi vacib bildik.

Əsərin ifası zamanı müğənninin kamança alətinin texniki imkanlarını nəzərə alması diqqəti cəlb edir. Əsərin birinci bəndinin kamançanın müşayiəti ilə şeir formasında deyilişi, kamança alətinin ifasında səslənən melodiyanın

vokala ötürülməsi zamanı müğənninin musiqi alətindən mükəmməl formada səsə keçid etməsi onun texniki imkanlarının göstəricisidir. İ.Nəzərov əsərin ifası zamanı səsləndirmiş uzun musiqi cümlələrini qurmaq üçün nəfəsdən geniş istifadə etmişdir.

G.Abdullazadənin "Hicazkar İlahi – Sultan Nənəm" əsərini onun İ.Nəzərovun ifasındakı digər musiqi nümunələrindən fərqləndirən ən böyük xüsusiyyətlərdən biri mahnının kamança aləti ilə müşayiət olunmasıdır. Adətən, əsərlər fortepiano alətinin müşayiəti ilə ifa olunur. Müğənninin bu əsərin ifası zamanı istər ritmik, istərsə də fərqli ifadə vasitələrindən istifadə etməsi təfsirin dinləyici tərəfindən sevilməsində böyük rola malikdir. Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Minaxanım Babayeva müğənninin təfsiri haqqında bu fikirləri qeyd edir: *"Dinamik nüansların bir-birini əvəzləməsi və bu ardıcıllığın böyük professionallıqla həyata keçirilməsi İ.Nəzərovun musiqi duyumunun dərinliyindən, onun insani keyfiyyətlərinin ifasına yansımasından xəbər verir"* [1, s.57].

İ.Nəzərov ifa etdiyi bütün əsərləri müxtəlif rəng çalarları ilə zənginləşdirə bilir. Bu xüsusiyyətə sahib olmaq ifaçı üçün çox vacibdir. Geniş və zəngin repertuara malik İ.Nəzərov bəstəkar G.Abdullazadənin 4 əsərini ifa etmişdir.

Haqqında danışdığımız bəstəkarın əsərlərini ifa etmək üçün hər bir müğənni böyük texniki imkanlara və geniş səs diapazonuna malik olmalıdır. Belə ki, G.Abdullazadənin müxtəlif mövzuları əhatələyən və fərqli tessituraya malik əsərlərinin öhdəsindən gəlmək çox çətindir. İ.Nəzərov belə əsərləri mükəmməl ifa etmək üçün sadalanan və tələb olunan bütün keyfiyyətlərə malikdir. Ü.Hacıbəyli adına BMA-nın doktorantı Günel Bəkirova İ.Nəzərovun müxtəlif səs tembrləri ilə ifa etməsi haqqında bu fikirləri bildirir: *"Müğənninin ifaçılıq prinsipinə xas ən əasas cəhət onun müxtəlif registrə aid olan beş partiyanı ifa edə bilmə bacarığıdır.*

*Yəni İ.Nəzərov soprano, metso-soprano, alt, kontralto, bariton və bas partiyalarını ifa edir. Bir səsdən digərinə keçid bir oxuma prinsipindən digərinə keçid deməkdir və öz-özlüyündə mürəkkəb prosesi əks etdirir"* [2, s.109].

Onun yaradıcılığına nəzər saldıqda aydın olur ki, müğənni müraciət etdiyi bütün bəstəkarların əsərlərini yüksək professionallıqla oxumuş, onları mükəmməl təfsiri ilə daha da zənginləşdirmişdir.

Məqalənin sonunda G.Abdullazadənin "Hicazkar İlahi – Sultan Nənəm" əsərinin İ.Nəzərovun aranjimanında not nümunəsini təqdim edirik:








Not nümunəsindən göründüyü kimi, əsər şur məqamında bəstələnmişdir, tonallığı si minor (orijinalda do minor), tempi largo, ölçüsü 4/4-dür. Lakin burada İlham Nəzərovun interpretasiyasında ritmik baxımdan orijinaldan fərqliliklər müşahidə olunur. Məsələn, istər kamançada (8-ci xanə), istərsə də vokal partiyasında (12-ci xanə) bir xanə 3/4 ölçüdə ifa olunur. 35 və 36-cı xanələr isə 5/4 ölçüsündədir. Əsər 37-ci xanədən başlayaraq sona kimi 4/4 ölçü ilə davam edir.

## Nəticə / *Conclusion*

Əlbəttə, kiçik bir məqalədə G.Abdullazadənin "Hicazkar İlahi – Sultan Nənəm" əsərinin İ.Nəzərovun təfsirindəki bütün incə nüanslarına toxunmaq mümkünsüzdür. Müğənninin çoxşaxəli sənət yolunu işıqlandırmaq üçün genişmiqyaslı tədqiqat işinin aparılması mütləqdir. Sənət var ev üçün, sənət də var el üçün. İlham Nəzərovun yaradıcılıq fəaliyyəti nəinki el üçündür, beynəlmiləlləşmiş, ümumbəşəridir. Onunla təkcə Azərbaycan xalqı deyil, bütün Türk dünyası, eləcə də dünya musiqisevərləri fəxr edir, böyük qürur duyurlar.

## Ədəbiyyat / *References*


1. Babayeva M.İ. İlham Nəzərov: ənənə və novatorluq kontekstində. Bakı: Musiqi dünyası, 2022.
2. Bəkirova G.M. İlham Nəzərovun opera ifaçılığında bəzi xüsusiyyətlər. Bakı: Musiqi dünyası, 2019.
3. Dadaşzadə Z.A. Nizaminin söz qəsrinin musiqi təcəssümü. Bakı: Mədəniyyət-Culture, 2021, noyabr-dekabr.
4. Hacıbəyli Ü.Ə. Bədii və publisistik əsərlər. / Ü.Ə.Hacıbəyli. Bakı: Şərq-Qərb, 2008.
5. Hüseyn Cavid. Əsərləri: [5 clddə] / tərt. ed.: T.Cavid. Bakı: Lider, III c., 2005.
6. İlham Nəzərov: sərhədsiz səs... / tərt. ed. G.Abdullazadə. Bakı: Savad, 2020.

7. Qulamova J.E. Qadınlar musiqidə. "Mədəniyyət" qəzeti, 2022, 11 mart.
8. Nəzərov İ.İ. Azərbaycan klassik və estrada vokal ifaçılığının inkişafına qısa nəzər. Bakı: Mədəniyyət-Culture, 2020, noyabr-dekabr..
9. Nəzərov İ.İ. Müslüm Maqomayevin Azərbaycan və dünya vokal ifaçılığı sənətində rolu: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. Bakı, 2021.
10. Piriev R.V. Features of Futurism Performance on the Example of the Works 'Luna, Lussuria e Velocita' in Ilkham Nazarov's Interpretation // – Kyiv: Bulletin of Kyiv National University of Culture and Arts. Series in Musical Art, – 2021. Vol. 4, № 2; https://doi.org/10.31866/2616-7581.4.2.2021.245798
11. Uyar, G. Kenan Rifai Hazretlerinin peygamber efendimize ve ehlibeytine hürmetinden muhabbetinden bahsedilen tebliğ: [Elektron resurs] / Bir kültürün ışığında; "Bir 20. Yüzyıl Münevveri Ken'an Rifâî Adlı Sempozyumdan Notlar" – 30 aprel, 2015. http://www.gulmisalgursoy.com/makaleleri20kdm.html
12. İblisin monoloqu - İlham Nəzərov: [Elektron resurs] / Ilham Nazarov. – 12 iyul, 2022. https://www.youtube.com/watch?v=lBPtNtie9Gw&lc=UgxOg-0nXpFeKgcIX7V4AaABAg
13. "HİCAZKAR İLAHİ - SULTAN NƏNƏM" G.Abdullazadə/K.Büyükaksoy: [Elektron resurs] / Ilham Nazarov. – 13 mart, 2022. https://www.youtube.com/watch?v=BIVsyEIFKEw

## Исполнительские особенности произведения Гюльназ Абдуллазаде "Hicazkar Ilahi – Sultan Nenem" в интерпретации Ильхама Назарова

**Аббасгулу Наджафзаде**
Доктор искусствоведческих наук
Азербайджанская Национальная Консерватория. Азербайджан.
E-mail: a.najafzade@yahoo.com

**Резюме.** В настоящей статье рассматриваются исполнительские особенности произведения представительницы отечественной композиторской школы, проректора по научной части Бакинской Музыкальной Академии им. У.Гаджибекова, заслуженного деятеля искусств, доктора философских наук, профессора Гюльназ Абдуллазаде "Hicazkar İlahi – Sultan Nenem" в интерпретации первого и единственного отечественного вокалиста, обладающего тембром голоса контратенор, Ильхама Назарова, а также тот факт, что исполнитель в своей интерпретации принял ко вниманию исполнительские особенности кяманчи. В своем исследовании автор не оставляет без внимания место и роль И.Назарова в азербайджанском вокально исполнительском искусстве.
**Ключевые слова:** азербайджанское вокально-исполнительское искусство, Ильхам Назаров, новатор, "Hicazkar İlahi – Sultan Nenem", Гюльназ Абдуллазаде, композитор, Кенан Рифаи Бюйюкаксой, кяманча